

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 126 (24.263)

*18 iyul 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşü olub



İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

* * *

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.

Şarl Mişel açıqlamasında deyib:

– Prezident Əliyev və baş nazir Paşinyanla altıncı görüşü indicə yekunlaşdırdıq. Bizim müzakirələrimiz yenə də səmimi, dürüst və məzmunlu oldu. Görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişinyovda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksək səviyyəli görüşlər silsiləsinin davamı oldu.

Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirdik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim.

Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik.

**Suverenlik və ərazi bütövlüyü.** Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədilər.

**Sərhədlərin delimitasiyası.** Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bir daha təsdiq etdilər.

Mən hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladım. Bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.

Ən mühümü isə odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.

**Kommunikasiyalar.** Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.

Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.

**Humanitar yardımlar.** Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında vəziyyəti müzakirə etdik. Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik.

Mən Laçın yolunun açılmasının vacibliyini vurğuladım. Mən Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd etdim. Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm.

Mən, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən tibbi təxliyənin bərpasını da alqışladım.

**Hüquqlar və təhlükəsizlik.** Yerli əhalinin, ilk növbədə, hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var.

Mən bu kontekstdə Avropa İttifaqının Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini bildirdim.

Bu dialoq bütün tərəflər üçün çox vacib olan etimadı təmin etməlidir.

**Saxlanılanlar.** Biz saxlanılanlar məsələsini də müzakirə etdik. Liderlər alicənablıq anlayışına sadiqliklərini bir daha təsdiqlədilər və bununla da ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunması asanlaşacaq.

Mən hər iki tərəfdən saxlanılanların azad edilməsinin tərəfdarı olduğumu bildirdim.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi və minatəmizləmə üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyi də müzakirə olundu. Mən bir daha tərəfləri mümkün qədər çox məlumat mübadiləsi aparmağa çağırdım.

**Hadisələrin inkişafı.** Biz razılaşdıq ki, komandalarımız bu gün müzakirə olunan məsələlərin daha sonra konkret inkişafını təmin etmək üçün sıx təmasda olacaqlar. Real inkişaf isə yaxın gələcəkdə atılmalı olan növbəti addımlardan asılıdır.

Əsas prioritet isə odur ki, sülh və normallaşma danışıqlarına lazımi şəraiti təmin etmək üçün zorakılıq və sərt ritorika dayandırılmalıdır.

Mən, həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətimi bir daha bildirdim. Bundan əlavə, "Avropa siyasi birliyi"nin növbəti Zirvə toplantısı çərçivəsində Qranadada Fransa və Almaniya liderlərinin də iştirakı ilə beştərəfli görüş təklifimi də diqqətə çatdırdım.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri iyulun 15-də başa çatıb.

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 17-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Fuat Oktay qəbula görə təşəkkürünü bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında əlaqələrin çox böyük məmnunluq doğurduğunu vurğulayan Fuat Oktay münasibətlərimizin "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf etdiyini dedi. O, Şuşa Bəyannaməsi ilə rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə münasibətlərinin həmin sənəddən irəli gələn məqsəd və məramlar əsasında daha da inkişaf etdirilməsinin önəmini vurğuladı. Ölkəsində baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanın Türkiyənin yanında olmasının önəmini qeyd edən TBMM-in komitə sədri bu dəstəyə görə təşəkkürünü ifadə etdi.

İqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluğunu bildirən Fuat Oktay ölkələrimizin Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığının genişlənməsi istiqamətində səyləri yüksək qiymətləndirdi.

O, eyni zamanda Ermənistanda Nemesis terrorçularına abidənin qoyulması ilə əlaqədar Türkiyənin də ciddi narahatlığını bir daha diqqətə çatdırdı.

Fuat Oktay, həmçinin ölkələrimiz arasında enerji, təhsil, hərbi, hərbi-texniki, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələlərini qeyd etdi.

Türkiyədəki seçkilərdən sonra Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinin önəmini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu səfər əsnasında da ikitərəfli əlaqələrin inkişafı ilə bağlı geniş müzakirələrin aparıldığını vurğuladı.

Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki sahədə əməkdaşlığın inkişafına toxunan dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda olarkən Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirakının ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişafının növbəti nümunəsi olduğunu bildirdi. Şuşa Bəyannaməsi ilə müttəfiqlik prinsipi əsasında ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, həmçinin bu əməkdaşlığın parlament səviyyəsində daha da inkişaf etdirilməsinin, parlamentlərin xarici əlaqələr komitələrinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətinin daha da genişləndirilməsinin vacibliyini vurğuladı.

Dövlətimizin başçısı, öz növbəsində, Ermənistandakı Nemesis abidəsinin qoyulmasının qəbuledilməz hal olduğunu bir daha qeyd etdi.

Görüşdə, həmçinin Orta Dəhliz, enerji sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı, son dövrlərdə Türkiyə ilə Azərbaycan arasında Preferensial Ticarət Sazişindən irəli gələrək iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi və ticarət dövriyyəsinin 6 milyard dollara çatması müsbət məqamlar kimi qeyd olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

# Naxçıvanda 15 iyul – Demokratiya və Milli Birlik Günü qeyd edilib





Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunda 15 iyul – Demokratiya və Milli Birlik Günü ilə bağlı tədbir keçirilib. Əvvəlcə hər iki ölkənin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-polkovnik Kərəm Mustafayev və digər dövlət rəsmiləri, elm, ali təhsil, mədəniyyət ocaqlarının rəhbərləri iştirak ediblər.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya çıxış edərək bildirib ki, tarixin ağır sınaqlarından üzüağ çıxan türk xalqı 2016-cı il iyulun 15-də böyük qəhrəmanlıq göstərərək ölkədə hərbi çevriliş cəhdinin qarşısını alıb. Əliyalın insanlar tankların, silahlı qiyamçıların qarşısına çıxaraq dövlətin, qanuni hakimiyyətin müdafiəsini təmin edib, demokratiyaya sadiqliyini göstərib. Türkiyənin dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün hakimiyyət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində dövlət çevrilişi cəhdinin qarşısı alınıb. Bu zaman Türkiyə 251 şəhid verib.

Vurğulanıb ki, dövlət çevrilişi cəhdindən artıq 7 il ötür, bu dövrdə bir sıra beynəlxalq təşkilatlar və ölkələr Türkiyənin haqq səsinə səs verərək baş verən hadisəyə düzgün münasibət göstəriblər. Azərbaycan hadisənin baş verdiyi andan öz dəstəyini qardaş ölkədən əsirgəməyib. Ümummilli Liderimiz Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** kəlamına əsaslanan, hər iki ölkə liderinin apardığı uğurlu siyasət nəticəsində ölkələrimiz arasında dostluq və tərəfdaşlığın daha da möhkəmlənməsindən, birgə həyata keçirilən layihələrdən söhbət açan Baş konsul qeyd edib ki, müttəfiqlik əlaqələrinin gücləndirilməsində Mustafa Kamal Atatürkün "Türk Qapısı" adlandırdığı Naxçıvanın da əvəzsiz töhfəsi vardır.

Sonra "Anadolu" Agentliyinin hazırladığı "15 iyul" videoçarxı nümayiş etdirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev çıxış edərək bildirib ki, şəhidlərin əziz xatirəsini anmaq üçün, qazilərə ehtiram əlaməti olaraq keçirilən bu tədbirin əsas məqsədi dövlət çevrilişinin necə baş verdiyini dərindən öyrənmək və bu çevrilişin əsas səbəbkarının əməl və məqsədlərini ortaya çıxararaq gələcək nəsillərə düzgün şəkildə çatdırmaqdır. Elbrus İsayev çıxışında ölkələrarası dostluq və tərəfdaşlığın daha da möhkəmlənməsində birgə həyata keçirilən layihələrin, iki ölkə arasında imzalanan, parlamentlər tərəfindən qəbul edilən Şuşa Bəyannaməsinin önəmindən də danışıb.

Vurğulanıb ki, 2016-cı il 15 iyulda demokratiya, insan hüquqları uğrunda mübarizəyə qalxan Türkiyə xalqı uzun əsrlərdən bəri formalaşan tarixi ənənələrinə, dövlətçiliyinə, azadlığına sahiblənməyin ən gözəl nümunəsini yaradıb. 1994-1995-ci illərdə Azərbaycan xalqı da birlik-bərabərlik sayəsində dövlət çevrilişinin qarşısını alaraq eyni örnəyi göstərib. Hər iki ölkə arasında təhsil sahəsində qurulan əlaqələrdən söhbət açan rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin dünya ölkələri ilə 150 protokol işi vardır ki, onun 80-dən çoxu Türkiyə ali təhsil ocaqları ilə imzalanıb.

Sonra Türkiyə Respublikası Rabitə Nazirliyinin hazırladığı, 15 iyul – Demokratiya və Milli Birlik Gününün önəmindən bəhs edən videoçarx göstərilib.

Sonda Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov hər iki ölkənin şəhidlərinin ruhuna müqəddəs "Qurani-Kərim"dən surələr oxuyub.

**Nail ƏSGƏROV**

*2023-cü il "Heydər Əliyev İli"dir*

## Dünənimizə, bu günümüzə, gələcəyimizə işıq tutan dahi ömrünə şahidlik edən isti ocağın manifesti

### *Ümummilli Lider Heydər Əliyevin gənclik illərinin keçdiyi və ölkəmizə rəhbərliyinin Naxçıvan dövründə yaşadığı hər iki evdən monoloq-reportaj*



Düzdür, o illəri xatırlamaq xalqımız üçün çox çətindir, dözülməzdir...Ancaq düşünəndə ki, zamanın çətinlikləri, dövrün qanlı-qadalı hadisələri, zülmə məruz qalan günahsız soydaşlarımızın ərşə ucalan haqq səsi Onu məğrur əllərindən tutub dünənimizə, bu günümüzə, sabahımıza gətirdi, o zaman illərdir, çəkdiyimiz əziyyətlərə dəydi, Vətənimizin göstərdiyi mübarizlik, qəhrəmanlıq öz yerini haqqın heç əyilməyən qələbəsinə verdi söyləyirik. Çünki O, ***"Canım, varlığım qədər sevdiyim Azərbaycanım, mənim qibləgahımdır!"*** şüarını əlində ədalətin, istiqlalın bayrağı edərək gəlmişdi görüşümüzə, uzun illər imperialist qüvvələrin təzyiqi, təqibi altında əzilən millətimizin imdad çağırışlarına qulaq verib azadlıq, müstəqillik andı içmişdi. Andına son nəfəsinədək sadiq qaldı da...Bu gün Onun səsinin yetdiyi, əlinin toxunduğu hansı xatirəyə işıq tutsaq, tarixin hansı qapısını döyüb Onu soruşsaq Vətənin xilaskar oğlundan – Ümummilli Lider Heydər Əliyev dühasından ürəkdolusu danışır. Elə Ulu Öndərin 80 illik ömrünün müəyyən dövrlərinə şahidlik etmiş əşyalar, eksponatlar, Onunla görüşmək şərəfini qazanmış insanlar da, hətta onunla çiyin-çiyinə bir ömürdən üç ili birgə bölüşmüş, yaşadığı çətinliklərdə, sevinclərdə, kədərlərdə ona həmdəm olmuş, qarşısında dayandığım bu ev də eyni duyğunu bölüşür. Dahi siyasi xadimin ölkəmizə rəhbərliyinin Naxçıvan dövründə yaşadığı evi deyirəm, bu vaxtacan doğulub, boya-başa çatdığı məmləkətində heç bir jurnalistin qonaq olmadığı o müqəddəs ocağı...

*Yurdum, yuvam, ocağım...*
*Salam, evim eşiyim.*

Bu evi görmək, onun söhbətini dinləmək bizim kimi neçə xoşbəxt insana qismət olacaq, bilmirəm...Ancaq hələ mənzilə daxil olmamışdan bir zamanlar Ulu Öndərin hər səhər işə yollandığı, hər axşamüstü evinə daxil olduğu darvaza, asta yerişlərlə, təmkinli addımlarla qalxdığı pillələr, açdığı qapılar illər sonra gələn qonağı Ümummilli Liderin adına layiq şəkildə, böyük qonaqpərvərliklə qarşılayır. Biz də böyük sevinc və qürur hissi ilə evə daxil oluruq...İkimərtəbəli, sadə döşənmiş evin giriş hissəsində, dahi rəhbərin hər gün vaxt keçirdiyi qonaq otağındayam. Bu vaxta qədər böyük ümidlə xatirələrini bölüşmək istəyən əşyalar, eksponatlar sanki əllərimdən tutub evi gəzdirir. Evin hər guşəsindən bir əşya sanki nə isə bölüşür bizimlə, masa üzərində dayanan lampa, qələm, kitab rəfində Ulu Öndərin oxuduğu kitablar, məktublar, hər gün işə yollandıqda tamaşa etdiyi güzgü və daha nələr-nələr...Onunla bağlı ilk xatirələrini salonun bir tərəfində dayanan, nikbin ovqatla bizi salamlayan saat bölüşür,





Ümummilli Liderin hər anının, hər dəqiqəsinin şahidi olduğu üçün ürəyini açır oxucularımıza: – 1923-cü ildə, may ayının 10-da gəlişi ilə Əlirza kişinin evinə sevinc, ruzi-bərəkət gətirmişdi. Maddi imkanları zəif olsa da, bu ailəni, daim halal çörəyi, təmiz vicdanı hər şeydən üstün tutardı. Ümummilli Lider sağlığında da heç zaman bu günü ilə öyünməzdi, lakin hər zaman zəhmətkeş ailəsindən, ata-anasından, uşaqlıq illərindən ürəkdolusu danışardı, qürurla, şərəflə kamala çatdığı ailəsini belə vəsf edərdi: ***"Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni, bütövlükdə, Azərbaycanımız üçün dünyaya gətirib..."*** Təbii ki, ilk baxışdan çox sadə görünən bu ailə Azərbaycan xalqına 3 alim-akademik, 1 Xalq rəssamı, 2 elmlər namizədi, 1 general sərkərdə bəxş etdi. 8 övladlı ailənin 4-cü övladı olan Ulu Öndərimiz Heydər Əliyev uşaqlıqdan elmə, təhsilə böyük maraq göstərirdi. 1938-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda oxudu, oranı müvəffəqiyyətlə başa vurdu...Hələ Naxçıvan ibtidai məktəbində oxuyarkən O məktəb tamaşalarında tez-tez iştirak edirdi, həmişə də şahzadə, sərkərdə rollarında oynayırdı. Çünki, Onun gözəl qaməti, aydın diksiyası, cəlbedici natiqlik istedadı var idi. Həmçinin gözəl rəsmlər də çəkə bilirdi. Bu rəsmlərdən bir neçəsi muzeylərimizdə qorunub yaşadılır. Beləliklə, Onun fitri istedadı, gözəl qabiliyyəti hələ uşaqlıqdan özünü bürüzə verməyə başlamışdı...

*Məşəl kimi yanan ürək...*

Bu ev Ümummilli Liderimizsiz artıq 30-cu ilinə qədəm qoyur... Bu qədər uzun vaxt keçməsinə baxmayaraq, nə xatirələr köhnəlib, nə də onunla olanlar, yaşananlar, yaddaşlarda qalanlar silinib...Bu evdə yerləşən hər maddi mədəniyyət nümunəsi, hər bir əşya tarixə işıq tutur, illərin tozlanmış hafizəsini silkələyir, nəyisə tapır, çıxarır, nədənsə elə hey danışır. Sözü-söhbəti rəvan, "qəlbi" sinədəftər olanlardan biridir qarşısında dayandığım, üzərinə dahi rəhbər Heydər Əliyevin gənclik illərinin əvəzsiz xatirələri hopmuş bu güzgülü şkaf: "O, tariximizin ən çətin anında, Stalin repressiyasının heç səngiməd iyi bir anda həyat yoluna qədəm qoymuşdu. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu müvəffəqiyyətlə bitirdikdən sonra elə həmin ildə Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinə qəbul oldu. O, hələ uşaqlığından memar olmaq arzusu ilə yaşayırdı və bu ümidi ilə də 1941-ci ilə qədər orada uğurla təhsil aldı. Ancaq, təəssüf ki, 1941-ci ildə İkinci Dünya müharibəsinin başlaması, bir çox gəncin taleyində olduğu kimi, onun da həyatına təsirsiz ötüşmədi. Müharibənin başlaması ilə təhsilini yarımçıq qoymalı oldu. Təbii ki, bu kiçik uğursuzluq heç zaman Onu ruhdan sala bilməzdi, bilmədi də. Belə ki, səmərəli fəaliyyəti, yüksək siyasi duyumuna görə 1941-ci ildə gənc Heydər Əliyev Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Daxili İşlər Komissarlığı tərəfindən Naxçıvana, Ona doğma olan şəhərə çağırıldı. Gənc olmasına baxmayaraq, O, Naxçıvanda Xalq Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində məsul bir işdə – şöbə müdiri vəzifəsində çalışdı. 1944-cü ilə qədər bu vəzifədə işlədi.

Ardı 3-cü səhifədə

1944-cü ildə rus dilini gözəl bildiyinə, qeyri-adi istedad və səriştəsinə, çox məsuliyyətli olduğuna görə irəli çəkildi və Dövlət Təhlükəsizlik Orqanlarında işə başladı. Bütün bu uğurları, etimadı O öz zəhməti, alın təri ilə qazanmışdı. Elə həmin illərdə Leninqradda xüsusi ali təhsil almağa da başlamışdı. Həmçinin bundan bir neçə il sonra – 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul oldu və 1957-ci ildə oranı müvəffəqiyyətlə bitirdi. Bundan sonra onun elm, təhsil yolundakı qətiyyətlərini siyasi səriştəsi əvəz etdi...

*Heydər dedim coşdu qələm,*
*cənnətməkan oldu sinəm...*



Dəqiqənin, saatın necə keçdiyini bilməmək çox qəribə hissdir, insanı sanki bu dünyadan uzaqlaşdırır, tamam fərqli bir aləmə qərq edir. Bəlkə də, başqa bir yerdə, ayrı məkanda olsaq, bu düşüncəyə qapılmarıq. Ancaq bu evdə Ümummilli Liderin əlinin toxunduğu hər bir əşyaya toxunmaq, onun keçdiyi dəhlizlərdən keçmək, bütün sadaladıqlarımızla muzeydə olduğu kimi, şüşə altından yox, məhz canlı surətdə təmasda olmaq... bu hissi ancaq yaşayanlar bilər, sözlə ifadə etmək isə çox çətindir...Salonun ən başında yerləşən pilləkən bizi evin ikinci mərtəbəsinə, Ümummilli Liderin iş otağının yerləşdiyi yerə çıxarır. Geniş bir dəhliz, qonaq otağı və dəhlizdən keçib dahi rəhbərin iş otağına daxil



oluram. Otağın bir guşəsində Ulu Öndərin oxuduğu kitablar, qəzetlər olan kitab rəfi, digər tərəfində isə üzərində ölkəmizin tarixi taleyi ilə bağlı qəbul etdiyi fərmanları, tapşırıqları imzaladığı iş masası dayanır. Otağa hakim kəsilmiş sükutu kitabların sirli-sehrli aləmindən qopan kəlmələr pozur, sanki üzümüzdəki sevinci hiss edirmiş kimi bizimlə söhbətə tələsir: – Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin müəllifi və rəhbəri Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun sətirlərə sığmayacaq fəaliyyətini tam əhatə etməyə yetmir... Bu evdə yerləşən hər bir əşyanın, eksponatın Onunla bağlı o qədər maraqlı xatirəsi var ki, hansından başlayacağımızı, ən əsası, 30 il sonra görüşümüzə gələn qonaqlarımızı, yəni sizləri necə razı salacağımızı bilmirik. Amma söhbətə mütləq bir məqamdan başlamaq lazımdır. Axı sizin də bura gəliş məqsədiniz var... Dahi şəxsiyyət Heydər Əliyev öz parlaq siyasi zəka və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratdı və gələcəyə aparan yolları müəyyən etdi. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü bu böyük dühanın adı ilə sıx bağlıdır. Bu dövrün Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu isə Azərbaycançılıqdır, bir sözlə, Azərbaycan xalqıdır. Bu dövlətçilik strategiyasında Azərbaycançılıq məfkurəsi xüsusi yer tutur. Dahi şəxsiyyət Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi anti-Azərbaycan siyasi xəttinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsi, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etməsi, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını qətiyyətlə tərk etməsi vətənpərvərliklə, Azərbaycançılıq məfkurəsi ilə bağlı idi. Bu, əsl vətənpərvərlik mövqeyinin nümayişi olmaqla bərabər, həm də Ümummilli Lider adını daşımaq gücündə olan şəxsə – Heydər Əliyevə yaraşan addım idi.

*Tarixə çevrilmiş imzalar,*
*bir qələmdən yazılanlar, pozulanlar...*

Otağın bir guşəsində dayanan iş masası da danışır bizə o illərdən. Bu evdə yer alan bütün əşyaları göz önünə gətirsək, ən çox söz haqqı ona düşər, bəlkə də... Çünki bu masa, üzərində dayanan kitab, qələm, ağ vərəqlər kim bilir nə hadisələrə, nə həqiqətlərə şahid olub. Nə bilmək olar, bəlkə də, Vətənimizin tarixi ilə bağlı qərarlar məhz bu masanın üzərində imzalanıb, neçə-neçə soydaşımızın gələcək müqəddəratı bu masada öz xoşbəxt həllini tapıb. Əminəm ki, 90-cı illərdə Naxçıvanın, bütövlükdə, ölkəmizin tarixi taleyi xalqımızın məhz bu masaya, üzərindəki qələmə, ən əsası onlara həyat verən Ulu Öndərə çox şey borcludur. Ən yaxşısı onun söhbətini dinləyək: – Bu gün hər bir azərbaycanlı üçün sirr deyil ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş ittifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb siyasi-hüquqi hadisələr cərəyan edirdi. Eyni zamanda həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Ümummilli Lider Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və Naxçıvanda sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı, sosial-iqtisadi vəziyyətin həddindən artıq ağır olduğu şəraitdə Ali Məclisin Sədri seçilən Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin və həmrəyliyin təmin edilməsinə nail oldu. Həmin dövrə nəzər saldıqda bu mərhələnin milli dövlətçilik ənənələrinin bərpası baxımından da xüsusi əhəmiyyət kəsb etdiyi görünür. Belə ki, bu istiqamətdə muxtar respublikanın dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasəti uğurla həyata keçirildi. 17 noyabr 1990-cı il tarixdə Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adından “Sovet” və “Sosialist” sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu bütün cəsarəti və siyasi uzaqgörənlik ilə nümayiş etdirdi. Bununla da Naxçıvan bu gün olduğu kimi, müasirlik və tərəqqi yolunda ilk addımlarını atdı.

*30 ildən sonra çalınan qapı, gələn qonaqlar və səhifələnən xatirələr...*

Ümummilli Liderin iş otağı ilə vidalaşıb evin həyətinə enirəm. 27 ildir ki, dahi rəhbərin evinə bələdçilik edən Səyyad əmi bizə evdən bir qədər aşağıda, eyni məhəllədə Ulu Öndərin bacısı Surə xanımın evinin olduğunu deyir. Təbii ki, bu məhəllədə doğulub böyüdüyüm üçün Surə xanımın evinin burada olduğunu yaxşı bilirdim. Həm də rəhmətlik nənəmdən onun mehriban, səmimi qonşuluğu barədə çox şey eşitmişdim... Səyyad əmidən bizi həmin evə aparmasını xahiş etdim. Sağ olsun, böyük məmnuniyyətlə razılaşdı. 22 illik ömrümdə mən



bu küçədən hər gün, hər saat keçmişəm, ancaq bu dəfə sanki yollar, ayaq basdığım yerlər, uşaq ikən qaçdı-tutdu oynadığım o evin qarşısı daha da doğmalaşıb mənim üçün. Söhbət edəedə, dahi rəhbərlə bağlı eşitdiklərimizi, bildiklərimizi, Səyyad əmi isə gördüklərini bizimlə bölüşə-bölüşə gəlib ünvana yetişirəm. İlahi, 30 ildir, döyülməyən bu qapı, bir gün gələr bu elin, yurdun əziz insanları, qonaqları qapımızı çalar, bizi sevindirər vüsalı ilə yaşayan xatirələr...necə də şirindir, əzizdir. Səyyad əmi qapını açır, bu o qapı idi ki, bir zamanlar Ümummilli Lider Moskvadan qayıdarkən ilk onun qarşısında dayanar, ədəblə bacısını səsləyər, ya da sakitcə qapını çalıb bir söz deməzdi. İstərdi ki, Surə xanım qapını açarkən gələn bu qonağın sevincini doya-doya yaşasın, sevinsin, şad olsun. Bacısı da ocaq üstündə dəmlənən plovu, qaynayan samovarı tez hazır edib qardaşının nazını çəkərdi, hal-əhval tutardı, ailəsinin, övladlarının kefini xəbər alardı. Sonra bu mehriban ailə – Ulu Öndər, Surə xanımın övladları, yoldaşı və xatirələrini əziz tutan qohum-qonşular bir stol arxasında əyləşib şam edərdi. Ümummilli Lider də onlara maraqlı söhbətlər edər, Moskva xatirələrindən danışar, ya da gələcək planları barədə nə isə deyərdi... İndi biz həmin stol ətrafındayıq, fotomüxbirimiz bu vaxta qədər nəinki Naxçıvan mediasında, heç ölkə mətbuatında olmayan şəkilləri fotoaparatın yaddaşına köçürüb əbədiləşdirir. Biz də evi gəzib dolanır, xatirələrə dalırıq. Divarda asılmış bir fotoşəkil diqqətimi çəkir, yaxınlaşıb ona tamaşa edirəm. Bu zaman arxadan Səyyad əminin səsini eşidirəm: “Ulu Öndərimizin bacısıdır bax, Surə xanımdır. “Görəsən dahi rəhbərin bacısı olmaq necə şərəfli, qürurlu hissdir insan üçün”, – deyə düşünürəm. Elə bu zaman xatirələr, illər arxasından gələn səslər yenə də bizi ağuşuna alır. Xalqın Heydər babasının necə bir şəxsiyyət olduğunu, bir də öz bacısının “dilindən eşidirik”: – Xoş gəlmisiz, gələn ayaqlarınız var olsun... Qardaşımla bağlı ən gözəl xatirələri, sözləri öz varlığı, canı qədər sevdiyi Azərbaycan xalqı illərlə danışacaq. Bəlkə də, bir az qeyri-təvazökar səslənəcək, ancaq rəhmətlik anam İzzət xanım Onu bizim üçün, ailəmiz üçün yox, bütöv Azərbaycan üçün dünyaya gətirmişdi. O, mehriban ailə başçısı, qayğıkeş ata, səmimi yoldaş olduğu qədər, bütün bacı-qardaşlarına da ömrünü, həyatını həsr edəcək bir şəxsiyyət idi. Uşaqlıq illərindən hər birimiz çox çətinlik çəkmişik, yoxsulluq görmüşük. Ancaq ailəmiz hər zaman halal ruzi qazanmağı, uşaqlarını oxudub savad sahibi etməyi hər şeydən üstün tutub. Bəlkə də, elə buna görə idi ki, qardaşım nə vaxt maddi imkanı zəif olan, övladını oxutmaq gücündə olmayan ailələrdən xəbər tutsa, özü onları xaricdə oxudar, iş-güc sahibi edərdi. Ailəmizdə, xüsusən də əziz və mehriban gəlinimiz Zərifə xanıma xüsusi məhəbbəti var idi. Onların dövlətimizin inkişafı yolunda birgə etdiyi xid-



mətləri, yaxşılıqları hər birimiz çox yaxşı bilirik. Bəlkə də, ülvi sevgidən güc alan əqidələri onları xalqa bu qədər sevdirdi. Bütün həqiqətləri bir kənara qoysaq, təkcə 1990-cı ildə iyulun 22-də Naxçıvana gəlməsi və 80 min naxçıvanlının Onu təmtəraqla, şövqlə qarşılaması qazandığı sonsuz sevginin, dəyərin göstəricisi idi. Allah Ona rəhmət eləsin, ruhu şad olsun. Qardaşımın xatirəsini sevən, Onu əziz tutan Azərbaycan xalqı var olduğu müddətdə bu böyük dahi də var olacaq, elə bizlər də...

*Bu xalqın ümidi, vüsalı hər dəm,*
*Heydər dühasından baxar dünyaya*

İki otaqdan ibarət sadə tikili evin salonunda bir portret də yerləşir. Bu müəllifi bizə məlum olmayan əsərdə dahi rəhbər gül-çiçəklər içərisində Günəşin üfüqlərini seyr edir. Uzağa dikilmiş gözlərində şölələnən ümid eşqi ilə harasa baxır, bilmirəm, bəlkə də, yenidən qurulan azad, müstəqil, qalib Vətəninə tamaşa edir. Qəlbi doludur sözlərlə, amma niyəsə danışmaq istəmir. Həyatda çox zaman belə hadisələr olur; insan düşüncəsinə sığmayan xatirələr özünü sükutla büruzə verir. Amma biz duya bilirik onun nə dediyini, nəyi çatdırmaq istədiyini. Bir tək bizə onu söyləyir: “Vətəninin ən dar günündə onun dadına çatan bir rəhbərin xatirəsini üzərində daşımaq çox şərəflidir, qürurludur. Bu portreti ərsəyə gətirəndə edilən söhbətləri, yada salınan hadisələri, Ümummilli Liderlə bağlı deyilənləri, xatırlananları düşünəndə özümü xoşbəxt, bəxtəvər hiss edirəm. Nə yaxşı ki, illərdir, məhz bu evdə Onunla bağlı həqiqətləri bölüşürəm... Sizlər də ona görə xoşbəxtsiniz ki, bu evi görmək, Onun söhbətini dinləmək məhz siz jurnalistlərə və qəzetinizə qismət olub. Sizə təşəkkür edirəm, 30 il sonra bizə bu xoşbəxtliyi yaşadan əziz qonaqlar...”

*Bir-iki kəlmə də müəllifdən...*

Mən hər zaman “Şərq qapısı” qəzeti oxucularını xoşbəxt hesab etmişəm. Çünki bir zamanlar Ümummilli Liderin çörəkdən, sudan kəsib fasiləsiz nəşr etdirdiyi bu qəzet yeri gəlib bir fotonun izi ilə keçmişə işıq tutub, Naxçıvana gətirilən ilk traktorun tarixçəsini araşdırıb, tapıb və oxucularına çatdırıb, yeri gəlib dahi rəhbərin görüşmək, söhbət etmək şərəfini qazanmış türk generalların xatirələrini gün üzünə çıxarıb, bu gündən keçmişə körpü salıb, ya da qardaş Türkiyə Respublikasında min illərdən bəri mövcud olan Naxçıvan məhəlləsinə qonaq olub Osmanlı saraylarından günümüzə gəlib çatan xəritələrin tarixi reallığını oxucularına təqdim edib. Bir sözlə, ölkə mətbuatının bir sıra ilklərinə məhz “Şərq qapısı” qəzeti imza atıb. Bu gün isə Ulu Öndərin 100 illik yubileyinə töhfə olaraq O dahi şəxsiyyətin bir zamanlar yaşadığı evlərdən salamladıq sizləri. İllərdir, heç bir jurnalistin ayaq basmadığı, tanış olmadığı evlərdən... Müstəqil və qüdrətli Azərbaycanın rəmzi olan, mənalı və şərəfli ömrünün hər anı xalqımız üçün əziz olan Ümummilli Liderimiz Heydər Əliyevin işıqlı xatirələrini yaşatdığı üçün müqəddəs bir ziyarətgaha, muzey-kompleksə çevrilməklə dünya siyasi-mədəni irsinə layiqli töhfə verə biləcək evlərdən... Söhbətimizə isə Ümummilli Liderin bu qəzetə verdiyi tarixi qiymətlə nöqtə qoyuruq: ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”.***

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsinə təyinat olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamı ilə Məhəmmədzadə Nihad Rəsul oğlu Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini vəzifəsinə təyin edilib.

Nihad Məhəmmədzadə bu vəzifəyə təyin olunana qədər Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin Təşkilat-analitik və preventiv tədbirlər idarəsinin rəis müavini vəzifəsində işləyib.

## Şahin Bağırov Naxçıvanda vətəndaşları qəbul edəcək

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov iyulun 22-də Naxçıvanda vətəndaşları qəbul edəcək. Qəbul saat $10^{00}$-da Naxçıvan Baş Gömrük İdarəsinin inzibati binasında (ünvan: Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi 110) baş tutacaq.

Qəbulda Naxçıvan şəhərindən, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonlarından olan vətəndaşlar iştirak edə bilərlər. Qəbul zamanı vətəndaşların gömrük məsələləri ilə bağlı müraciətləri dinləniləcək. İştirak etmək istəyən vətəndaşlar *“195”* çağrı mərkəzi ilə əlaqə saxlayaraq və ya komitənin rəsmi internet səhifəsinin “Müraciətlər” və “Virtual qəbul” bölmələrindən daxil olmaqla (https://customs.gov.az/az/muracietler/sed-re-mektub/) qəbula yazıla bilərlər.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

## Cari ilin ötən dövrü ərzində 21 lisenziya verilib

Azərbaycanda sahibkarlığın inkişafının stimullaşdırılması, əlverişli biznes mühitinin təmin edilməsi, bu sahədə qanunvericiliyin, inzibati prosedurların və dövlət-sahibkar münasibətlərinin təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə lisenziyaların verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qarşıya qoyulmuş əsas vəzifələrdəndir və bu istiqamətdə ardıcıl olaraq tədbirlər həyata keçirilir.

Biznes sferasının tənzimlənməsi istiqamətlərindən biri də sahibkarlıq fəaliyyətinin lisenziyalaşdırılmasıdır. Bu istiqamətdə aparılmış islahatların nəticəsi olaraq lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı əhəmiyyətli dərəcədə azalıb. Bu islahatların tərkib hissəsi kimi ölkəmizdə "Lisenziyalar və icazələr haqqında" Qanun qəbul edilib, lisenziyalarla yanaşı, icazələrin də siyahısı müəyyən edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2023-cü il 4 aprel tarixli Fərmanına uyğun olaraq muxtar respublikada dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla digər fəaliyyət növlərinə lisenziyanın verilməsi üzrə səlahiyyətli dövlət orqanı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi müəyyən edilib.

Sahibkarlara xidmətin yüksək səviyyədə göstərilməsi üçün lisenziyalar İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzi vasitəsilə verilir. Ümumilikdə, bu dövrdə sahibkarlıq subyektlərinə 21 lisenziya verilib. Verilən lisenziyalar əczaçılıq, tikintisinə icazə tələb olunan bina və qurğuların layihələndirilməsi, tikinti-quraşdırma işləri, müxtəlif növ möhürlərin və ştampların hazırlanması, yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri, yanğınsöndürmə texnikası məhsulunun istehsalı və satışı, sınaqların keçirilməsi fəaliyyət sahələrini əhatə edib.

Reallaşdırılan tədbirlər nəticəsində bu sahədə lisenziyanın verilməsi daha da sadələşdirilib, sahibkar və vətəndaş məmnunluğu yüksəlib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Elm-İstehsalat Birliyinin əkin sahələrində taxıl biçininə başlanılıb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin əkin sahələrində taxıl biçininə başlanılıb. Taxıl biçininə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 4 kombaynı cəlb olunub. Biçinin gedişinə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova baxış keçirib.



"Araz" Elm-İstehsalat Birliyi tərəfindən 2022-ci ilin payızında 117 hektar sahədə bu ilin məhsulu üçün taxıl əkini keçirilib ki, onun da 107 hektarını buğda, 10 hektarını isə arpa təşkil edir. Əkin sahələrində "Qobustan", "Əhmədağa", "Konya", "Fatimə", "Bayraqdar" buğda və "Qarabağ-22", "Qarabağ-33" arpa toxum sortlarının əkinini aparmaqla yanaşı, Rusiya Federasiyasından gətirilmiş "Alekseiç", "Tanya", "Qomer", "Qrom" buğda sortlarının da sınaq əkinlərini həyata keçirib. Hazırda Birliyin 41,6 hektar əkin sahəsində biçin aparılıb, orta məhsuldarlıq hər hektardan 27 sentner təşkil edib.

## İkigünlük istirahət maraqlı və yaddaqalan olub



Bu gün ölkəmizin istənilən yerində müxtəlif dövlət strukturlarında çalışan əməkdaşların, eləcə də mətbuat sahəsində fəaliyyət göstərən jurnalistlərin və media işçilərinin vaxtlarının səmərəli keçirilməsi üçün bir sıra layihələr icra olunur. Hər il 22 iyul – Milli Mətbuat Günü ərəfəsində olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə muxtar respublikamızdakı media nümayəndələrinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük mədəni istirahəti təmin edilib. Bu, artıq Şuranın icra etdiyi davamlı, mütəmadi layihələrdən biridir. Qeyd etdiyimiz kimi, iki gün davam edən istirahət çox maraqlı və yaddaqalan olub. Media nümayəndələri bu vaxt ərzində İstirahət Mərkəzindən sosial şəbəkə hesablarında maraqlı fotoşəkillər paylaşıblar və istirahətdən, həmçinin onlara göstərilən xidmətlərdən razılıqlarını ifadə ediblər.

Qeyd edək ki, göstərilən diqqətə görə "Şərq qapısı" qəzetinin kollektivi də dövlətimizə minnətdarlıq edir.

## Təcrübə sahəsində müşahidələr aparılıb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri cari ildə sınaq məqsədilə Əliabad qəsəbəsində 0,5 hektar sahədə həyata keçirilmiş kinoa bitkisinin mövcud vəziyyətin qiymətləndirmə prosesində iştirak edib, bitkinin inkişafının qənaətbəxş olduğu müəyyən edilib. Kinoa bitkisi orqanik olaraq becərilib, becərilmə zamanı kimyəvi maddələrdən istifadəyə yol verilməyib. Alaq otları mexaniki yolla təmizlənib, tələb olunan suvarma suyu vaxtında təmin olunub.



Qeyd edək ki, bitkinin sınağına cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri tərəfindən başlanılıb. Hazırda bitki mum yetişmə fazasındadır. İyulun sonu, avqustun birinci ongünlüyündə bitkinin biçininin həyata keçirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Rezidenturaya qəbul imtahanı keçirilib

Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, ikinci cəhd) keçirilib. İmtahanlar Naxçıvanda saat $10^{00}$-da başlayıb.

Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəbdə təşkil olunan imtahanların keçirilməsinə 1 imtahan rəhbəri və 4 nəzarətçi cəlb olunub, 30 abituriyent iştirak edib.

Dövlət İmtahan Mərkəzi rezidenturaya qəbul olmaq üçün 16 iyul 2023-cü il tarixində keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının ikinci cəhdinin nəticələrini artıq elan edilib.

## Naxçıvan Muxtar Respublikası üzrə 17 iyul 2023-cü il tarixə taxıl biçininin gedişinə dair məlumat

| S/s | Şəhər və rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner/ hektar) |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 689 | 648,4 | 1364,1 | 21 |
| 2. | Şərur rayonu | 4189 | 2622,2 | 9926,4 | 37,9 |
| 3. | Babək rayonu | 6886 | 5061 | 10122 | 20 |
| 4. | Ordubad rayonu | 856 | 856 | 1185 | 13,8 |
| 5. | Culfa rayonu | 2181 | 1730 | 2295,4 | 13,3 |
| 6. | Kəngərli rayonu | 3780 | 3178 | 7473 | 23,5 |
| 7. | Şahbuz rayonu | 756 | 365,9 | 343,9 | 9,4 |
| 8. | Sədərək rayonu | 1910 | 1752 | 6328 | 36,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21247** | **16213,5** | **39037,8** | **24,1** |

## Növbəti profilaktik dezinfeksiya işləri görülüb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları tərəfindən Naxçıvan şəhərindəki tullantı qutuları və onların ətrafı dezinfeksiya olunub, ərazilər sanitariya qaydalarına uyğun olaraq təmizlənib.



Naxçıvanda epidemioloji sabitliyin qorunub saxlanılması məqsədi daşıyan bu tədbir muxtar respublikanın rayonlarında da həyata keçirilib, küçə və məhəllələrdə məişət tullantıları atılan qutular, onların yerləşdiyi ərazilər dərmanlanaraq dezinfeksiya olunub.

**Xəbərlər şöbəsi**

## Erkən nikahlar gələcək sağlam cəmiyyət üçün fəsadlar yaradacaq ciddi ictimai problemdir

*Hazırda dünyanı narahat edən aktual problemlərdən biri də erkən nikahlardır. Erkən nikah, yaxud uşaq nikahları 18 yaşından az olan uşaqların fiziki, mənəvi və psixoloji cəhətdən evliliyə və uşaq sahibi olmaq məsuliyyətini daşımağa hazır olmadan bağlanan nikahlardır. Bu yaş uşaqların müdafiəsi baxımından 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyən olunmuş son həddir. Azərbaycan Respublikasının Ailə Məcəlləsində beynəlxalq qanunvericiliyə uyğun olaraq son yaş həddi kimi 18 yaş müəyyən edilmişdir.*



Erkən nikahlar fərdin psixi, mənəvi və bioloji cəhətdən inkişafına təsir edən, təhsildən yayındıran, sosiallaşmasına mane olan önəmli faktordur. Beynəlxalq statistikaya görə hər il dünyada 10 milyona yaxın uşaq erkən nikaha məruz qalır. Erkən nikahlar beynəlxalq səviyyədə uşaq istismarının bir növü hesab edilir və buna qarşı mübarizə tədbirləri həyata keçirilir. Əvvəlki dövrlərə nisbətən müasir dövrdə bu cür halların statistikasında xeyli azalma müşahidə olunsa da, hələ də bu hal bəşəriyyəti təhlükəyə sürükləyəcək səviyyədə mövcuddur. Erkən nikah, adətən, 18 yaşdan az uşaqların nikaha cəlb edilməsi hesab edilsə də, dünya praktikasında daha çox qızların erkən evləndirilməsinə rast gəlinir. Erkən nikahların baş tutmasının müxtəlif səbəbləri və kifayət qədər zərərləri mövcuddur.

Tarixi ənənələr və mentalitetdən irəli gələn səbəblər, deməк olar ki, daha çox rast gəlinən hallardandır. Bəzən ailənin maddi vəziyyəti, ümidsizlik atmosferi yaradan kasıbçılıq, evliliyin övladına xoşbəxt həyat gətirəcəyi fikri də erkən nikahlara şərait yaradır. Bu praktika kəndlərdə və az-təminatlı ailələrdə geniş yayılmışdır.

Erkən nikahlar həm mənəvi-psixoloji, həm də fiziki cəhətdən uşaqların gələcək həyatlarına mənfi təsir edir. Erkən nikahın fəsadları ilə tez-tez rastlaşırıq. Erkən nikahların problem yaratmasının səbəblərindən biri də yeniyetməlik dövrünə təsadüf etməsidir. Həmin dövr uşaqların fiziki, psixoloji, bioloji və sosiallaşma cəhətdən sürətli inkişaf dövrüdür. İnsan həyatının ikinci böyümə və inkişafetmə dönəmi olan həmin zaman aralığı şəxsiyyətin formalaşması zamanıdır, ona görə də çox vaxt yeniyetmələrin fərdi xüsusiyyətlərində balans pozulur. Yeniyetmə dövründə nikaha daxil olmaq, ailə qurmaq, uşaq sahibi olmaq uyğun dönəm hesab edilmir. Dolayısı ilə ictimai inkişafını tamamlamamış olan bu yaşlardakı uşaqların evləndirilməsi uşaqların tam formalaşmamış fərdi keyfiyyətlərində problemə səbəb olur.

Evlilik şəxsin seçim edə biləcəyi bir hadisədir. Erkən nikahlar isə uşaqların uşaqlıqlarını əlindən almaqla onların inkişafında travmalara səbəb olur. Bu insanlar erkən yaşda ailə, ev, uşaq baxımı kimi məsuliyyətlərlə yüklənməklə şəxsi inkişafdan yoxsul qalırlar. Erkən nikahlar zamanı həmin şəxslər təhsildən uzaqlaşır. Belə nikah qurbanlarının daha çoxu qız uşaqları olduğundan, həmin qızların həyat yoldaşlarından asılı hala düşmələrinə və cəmiyyətdə qadın-kişi bərabərsizliklərinin yaranmasına gətirib çıxarır. Dünya statistikasına əsasən erkən yaşda evləndirilən qızlar, normal hala nisbətən iki dəfə artıq şiddətə məruz qalırlar. Erkən yaşda evlilik qadınların təhsilində və maddi vəziyyətinin məhdudluğu, tərəflər arasında yaş fərqi, güc balansının olmaması, qadının azadlığının əlindən alınması bu cür evliliklərin mexanizminin əsasıdır. Adətən, erkən evlilik halları ailələrin razılığı ilə baş tutduğundan, təxminən, evlənəcək şəxslərin 71 faizi evlənməmişdən öncə bir-birini görmürlər. Ailə planlaşdırılmasını dərk etmirlər və beləliklə, dünyaya gətirilən uşaqların sayında və sağlamlığında problemlər meydana çıxır. Dünya ədəbiyyatında depressiyaya düşənlərin statistikasında 10-17 yaş aralığında evlənənlərdə daha çox intihara meyillilik müşahidə olunur.

Dünyada və ölkəmizdə də tətbiq olunan erkən nikahların bağlanmasına qarşı mübarizə tədbirləri kifayət qədər aparılır. Bu sahədə beynəlxalq təşkilatlar və yerli qurumlar maarifləndirici tədbirlər görür, qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilir. Lakin erkən nikahlar rəsmi qeydiyyata alınmadığından onlara nəzarət etmək dövlət səviyyəsində çətinlik yaradır. Ona görə də bir çox ictimai problem kimi erkən nikah probleminin də aradan qaldırılması üçün ailələr, ayrı-ayrılıqda hər kəs mübarizə aparmalı, bu halın aradan qaldırılmasında üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər. Unutmayaq ki, sağlam cəmiyyətin gələcəyi sağlam ailələrin formalaşmasından başlayır. Cəmiyyət tərəfindən uşaqlar yük kimi deyil, cəmiyyətin bir üzvü, fərd kimi dəyərləndirilməlidir. Hər bir uşaq öncə ailənin, sonra cəmiyyətin və dövlətin gələcəyidir.

**Nuranə KƏRİMOVA**

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

### *İtmişdir*

Salahov Teymur Yusif oğlunun adına olan JN-0033 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Qeybullayev Yusif Hüseynalı oğlunun adına olan JN-253$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində Əsədov Həbib Rza oğluna məxsus JN-2542$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Rəsulova Fərqanə Abdulla qızının adına olan Türkiyə vətəndaşı kimliyi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 428